# Satiramızın sönməyən işığı Cəlil Məmmədquluzadə - 155



*Cəlil Məmmədquluzadə: Elə yaşamalısan ki, öləndən sonra da ölməyəsən - həyatın məqsədi məhz budur.*

*(Daycest)*

**Bakı – 2024**

Cəlil Məmmədquluzadə 10 (22) fevral 1869-cu ildə Naxçıvan şəhərində kiçik tacir ailəsində anadan olmuşdur. Ədibin babası daşyonan, bənna Məşədi Hüseynqulu İran Azərbaycanın Xoy şəhərindən olub, sonralar Naxçıvana köçmüşdür. Atası Məmmədqulu Məşədi Hüseynqulu oğlu ibtidai səviyyədə savadı olan dindar biri olmuşdur. O, ömrünü yoxsulluqla keçirmiş, elmə, maarifə rəğbət bəsləmişdir. Ədibin valideynləri 1905-ci ilin əvvəllərində Naxçıvanda vəfat etmişlər.

Cəlil Məmmədquluzadə 1873–1876-cı illərdə Molla Əli Hüseynzadənin, 1877–1879-cu illərdə isə Hacı Molla Bağırın məktəbində oxumuşdur. Ədib ərəb və fars dillərini də həmin vaxtda öyrənmişdir. Daha sonra Cəlil 1879-cu ildən Naxçıvan şəhər məktəbində təhsilini davam etdirir. Həmin məktəbdə dərslər rus dilində tədris olunurdu və Azərbaycan dilinin tədrisinə cuzi yer verilirdi.

Qori Müəllimlər Seminariyası nəzdində Azərbaycan şöbəsi yaradılması haqqında fərman verildikdən sonra Seminariya kənd məktəbləri üçün müəllim hazırlayırdı. Seminariyanın Azərbaycan şöbəsinin müfəttişi A. O. Çernyayevski ilk illərdə Azərbaycan rayonlarını gəzərək, seminariyada oxumaq üçün tələbələr seçirdi. O, 1882-ci ildə Naxçıvana gəlmiş və Cəlil Məmmədquluzadəni də başqa şagirdlərlə birlikdə təhsil alması üçün siyahıya almışdı. Cəlilin bu məktəbdə oxumağa istiqamətləndirilməsində müəllimi Əliməmməd Xəlilovun xüsusi rolu olmuşdur. Həmin il qəbul imtahanlarını uğurla verən Cəlil seminariyanın aşağı hazırlıq sinfində dərslərə başlamışdır. Ədibin dünyagörüşünün, bədii zövqünün, yaradıcılıq vərdişlərinin formalaşmasında 5 il (1882–1887) oxuduğu Zaqafqaziya Müəllimlər Seminariyasındakı təhsil illəri mühüm mərhələ təşkil etmişdir. Cəlil Məmmədquluzadə seminariyanı bitirib müəllimlik attestatı aldıqdan sonra pedaqoji fəaliyyətə başlamışdır. O, 1887–1897-ci illər arasında İrəvan quberniyasının Uluxanlı, Naxçıvan mahalının Baş Noraşen (indiki Şərur rayonunda Cəlilkənd) və Nehrəm kəndlərində müəllimlik etmişdir.

Yazıçı 1896-cı ildə ilk ailəsini qurmuşdur. 1897-ci ildə qızı Münəvvər anadan olmuş, həyat yoldaşı Həlimə xanım vəfat etmişdir. 1900-cü ildə dövrünün tanınmış hüquqşünaslarından olan Məhəmmədqulu bəy Kəngərlinin bacısı Nazlı xanım Kəngərli ilə ailə həyatı qurur. Lakin sonradan Mirzə Cəlillə Nazlı xanımın münasibətləri korlanır. Üçüncü dəfə 15 iyun 1907-ci ildə Həmidə xanım Cavanşirlə ailə həyatı qurmuş, oğlanları Midhət və Ənvər dünyaya gəlmişdir. Həmçinin Həmidə xanım Azərbaycanın ilk maarifçi qadınlarından olmuşdur.

Kəndlərdə müəllim işlədiyi illər ədibin gələcək yaradıcılığı üçün zəngin material vermişdir. Bir sıra kiçik hekayələrini, "Danabaş kəndinin əhvalatları" povestini də bu dövrdə yazmışdır. "Çay dəstgahı" adlı alleqorik mənzum dramını, "Danabaş kəndinin əhvalatları" povestini, "Danabaş kəndinin məktəbi", "Kişmiş oyunu", "Poçt qutusu" hekayələrini bu dövrdə yazmış, rus dilindən bəzi tərcümələr etmişdir. Mirzə Cəlilin ilk mətbu əsəri olan "Poçt qutusu" hekayəsi 1903-cü ilin noyabr ayında qələmə alınmışdır. "Poçt qutusu" hekayəsi gənc yazıçının ədəbi həyatında xüsusi əhəmiyyətə malik olmuş, onun gələcək yolunu müəyyənləşdirmişdir. Qüdrətli yazıçının "Usta Zeynal" (1905), "Dəllək" (1906), "İranda hürriyyət" (1906), "Fatma xala" (1906), "Qurbanəli bəy", "Quzu" (1914), "Nigarançılıq" (1916), "Konsulun arvadı" (1918), "Pirverdinin xoruzu" (1906) və b. hekayələri onu kiçik janrın böyük ustadı kimi tanıtmışdır. Cəlil Məmmədquluzadənin 1905-ci ildən sonrakı yaradıclığında, o cümlədən hekayələrində İranda və İran Azərbaycanında cərəyan edən ictimai-siyasi hadisələr mühüm yer tutmağa başlamışdır. Bu cəhətdən qələmə aldığı "İranda hürriyyət" hekayəsi çox xarakterikdir.

XX əsr Azərbaycan dramaturgiyasının inkişafında yeni bir mərhələni təşkil edən "Ölülər" komediyası 1909-cu ildə yazılmışdır. "Ölülər"də cəhalət, gerilik, ikiüzlülük və yalan ifşa olunur. Avamlıq və nadanlığın nə kimi bəlalar yaratdığı göstərilir. 1916-cı ildə Bakıda səhnəyə qoyulmuş "Ölülər"

komediyası uzun müddət Azərbaycan və Şərq ölkələrinin teatrlarında oynamışdır. Əsər tez bir zamanda Dərbənd, Buxara, Səmərqənd, Orenburq, Kazan, Tiflis, Yerevan və bşaqa şəhərlərin səhnələrində uğurla göstərilmişdir.

1920-ci ildə Şuşada "Kamança" pyesi yazılmışdır. Pyesdəki hadisələr Qarabağda cərəyan edir və həmin dövrdə Qarabağda yaşayan ədibin real həyatı müşahidələri əsasında qələmə alınmışdır.

C.Məmmədquluzadə 1903-cü ildən Tbilisidə nəşr edilən "Şərqi-Rus" qəzeti redaksiyasında işləmişdir. C. Məmmədquluzadənin yazıçı və jurnalist kimi formalaşmasında "Şərqi-Rus" qəzeti və onun redaktoru Məhəmməd ağa Şahtaxtinskinin mühüm rolu olmuşdur. 1905-ci ildə "Şərqi-Rus" bağlandığı zaman Məmmədquluzadə, jurnalist Ömər Faiq Nemanzadə və maarifpərvər tacir Məşədi Ələsgər Bağırzadə ilə şərikli bu qəzetin mətbəəsini alıb, ona " Qeyrət" adı vermişdir. 1905–1907-ci illərdə C. Məmmədquluzadənin ilk kitabçaları, ("Poçt qutusu", "Usta Zeynal", "Qurbanəli bəy", "İranda hüriyyət") "Qeyrət" mətbəəsində nəşr olunmuşdur. 1906-cı il aprelin 20-də (köhnə stil ilə 7 aprel) çıxan "Molla Nəsrəddin" jurnalının nəşrinə başlamaqla o, Azərbaycanda, eləcə də türk-müsəlman dünyasında ilk dəfə satirik jurnalistikanın əsasını qoydu. Həmin vaxtdan o, Molla Nəsrəddin adı ilə tanındı. C. Məmmədquluzadənin təbliğ etdiyi dərin demokratizm və azadlıq ideyaları jurnala ümumxalq məhəbbəti, beynəlxalq aləmdə böyük nüfuz qazandırdı. Başqa mollanəsrəddinçilər kimi, C. Məmmədquluzadə də irtica və qaraguruhçuların arakəsilməz təqib və təzyiqinə məruz qalırdı. Çar hökuməti onu tez-tez məhkəmə məsuliyyətinə cəlb edir, "Qeyrət" mətbəəsində axtarışlar aparır, bəzən də "Molla Nəsrəddin"in nəşrini dayandırırdı. 1920-ci ilin iyun ayında C. Məmmədquluzadə ailəsi ilə birlikdə Təbrizə köçmüş və 1921-ci ildə orada Molla Nəsrəddinin 8 nömrəsini çap etmişdir. 20-ci illərin ikinci yarısından tibarən C. Məmmədquluzadənin həyatında ciddi sarsıntılar dövrü başlanmışdır. Onun baş redaktoru olduğu "Molla Nəsrəddin" jurnalına ciddi senzura nəzarəti qoyulmuş, jurnalın nəşri üçün ayrılan dövlət vəsaiti (dotasiya) azaldılmışdı. Bir çox dövlət səviyyəli toplantılara, ədəbi-mədəni tədbirlərə dəvət edilməməsi, dövri mətbuatda haqqında çap olunan yersiz tənqidi məqalələr də böyük demokrat ədib üçün gözlənilməz mənəvi-zərbələrə çevrilmişdir. Bütün bunlar yazıçının sağlamlığını ciddi surətdə sarsıtmışdı. Böyük ədib 4 yanvar 1932-ci ildə Bakı şəhərində vəfat edib.

Cəlil Məmmədquluzadə 40 illik yaradıcılığı boyu müxtəlif janrlarda yazdığı əsərləri ilə realist Azərbaycan ədəbiyatının yeni, yüksək pilləyə qalxmasında müstəsna rol oynamışdı.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Cəlil Məmmədquluzadə Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.

F.Köçərli adına Resublika Uşaq Kitabxanası görkəmli ədib Cəlil Məmmədquluzadənin 155 illik yubileyi münasibətilə yazıçının kitabxana fondunda XX əsrin sonlarından günümüzədək mövcud olan kitabları, haqqında yazılan kitablar və dövrü mətbuat materiallarının tammətnli biblioqrafik siyahısını, eləcə də C.Məmmədquluzadənin müdrik kəlamları və yazıçı haqqında tanınmış şəxsiyyətlərin söylədiyi fikirlərin mətnini hazırlayaraq oxucuların istifadəsinə tədqim edir. Həmçinin daycestdə C.Məmmədquluzadəyə aid fotoşəkillər də yer alır.

## Cəlil Məmmədquluzadənin müdrik kəlamları

O şey ki, qoca Molla Nəsrəddinin qəlbinə və məzağına hər babətdən müvafiqdir, onun adı Şuradır – Şura üsul idarəsi. Şükr eyləyirəm vicdanıma ki, ölmədim və arzu etdiklərimə çatdım.

***

Təhsil alın ki, cahilləri idarə edəsiz, təhsil almasanız əksi olacaq, cahillərin əlinə baxmalı olacaqsız.

***

Məndən soruşsalar ki, dövlətdən, naz-nemətdən nəyim var, qürur hissi ilə deyərdim: Bütün kainatı, yer üzünü təsvir və tərənnüm etməyə qadir sözüm, ana dilim var.

***

Dünyada hər bir kəs üçün sözdən böyük yadigar yoxdur. Zira ki, mal-mülk tələf olub gedir, amma söz qalır.

***

Düzdür, yerindədir əlim-ayağım,

Vardır bədənimdə canım da hətta,

Ancaq bir iş var ki, yox azadlığım,

Ağrıdır yaşamaq əsarət altda.

***

Uşaqlıqdan görmüşəm ki, qonşu qadınlar, uşaqlar yad it görən kimi ona "paşol", yəni "get" deyib qovmağa çalışırlar. Mən təəccüb edirdim: doğurdanmı, itlər rusca "danışırlar"?

***

Mən bir dəfə əlimə daş götürüb, itə sarı "get burdan", "rədd ol" deyə qışqırdım. İt bu sözləri eşidən kimi məndən uzaqlaşdı. Deməli, it azərbaycanca da "başa düşürmüş".

***

Ey mənim yüz il sonra dünyada yaşayacaq millətim! Əgər bir gün hardansa “Molla Nəsrəddin”in saralmış və cırılmış vərəqləri əlinə keçsə, onda mənim milləti nahaqdan tənqid etdiyimi fikirləşmə.

***

Əgər bilmək istəsəniz ki, kimə gülürsünüz, o zaman qoyun qabağınıza aynanı və diqqət ilə baxın camalınıza.

***

Ölülər rahat idi. Əsl dirilməli olanlar "yaşayanlar" idi. ("Ölülər" əsərindən)

***

Dirisiylə rusca, ölüsüylə ərəbcə danışan xalqım mənim...

***

Vətən, vətən, vətən! Dil, dil, dil! Millət, millət, millət! Dəxi bu dairələrdən kənar bəni-noi bəşər üçün özgə nicat yolu yoxdur.

***

Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir... Bu ola gərək hər bir qələm sahibinin amalı!

***

Ay dünyanın zəhmətkeşləri, indi ki güclülər sizi ayaqlamaq üçün bir-biri ilə əlbir olublar, sizin də bircə çarəniz birləşmək və birləşib onlara qarşı çıxmaqdır!

***

Hər bir şey dünyada tərəqqi eləyən kimi, teatrımız da, şəkk yox tərəqqi edə gərək.

***

Ləkə pis şeydir. Bunun pisliyi iki babətdəndir: Biri budur ki, bir ləkə həmişə çirkindir və o yerdə ki, bir ləkə var, o yerə düşəndə, çirkin ləkədən savayı o yeri yavaş-yavaş deşib yırta da bilər.

***

Biz yazıçı millətik, bizə dünyanı yaxşıca tanımaq, təcrübə görmək lazımdır.

***

Bircə dənə dünyada bilik qalsın, elm qalsın, maarif qalsın.

***

Sözün doğrusunu danışmaq da bir hünərdir.

## Tanınmış şəxsiyyətlər Cəlil Məmmədquluzadə haqqında

Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda, o, bizim müasirimizdir, o, bu gün də bizimlədir, bizim sıralarımızdadır. Bizimlə bərabər Azərbaycanın müstəqilliyinə sevinir və bizimlə bərabər Azərbaycan Respublikasının daim müstəqil dövlət olması uğrunda öz yaradıcılığı ilə, qoyduğu mənəvi irslə çalışmaqdadır. Əsrimizin əvvəlində fəaliyyətə başlayan Cəlil Məmmədquluzadə bu gün, əsrimizin sonunda bizim üçün mənəviyyat mənbəyidir, mənəvi dayaqdır.

Xalqımızın milli şüurunun formalaşmasında məhz "Molla Nəsrəddin" jurnalının və Mirzə Cəlilin fəaliyyətinin rolu misilsizdir.

"Ölülər" əsəri haqqında mən tam cəsarətlə deyə bilərəm ki, dünya ədəbiyyatında buna bənzər ikinci əsər tapmaq mümkün deyildir. Bu əsər Cəlil Məmmədquluzadənin həm nə qədər böyük filosof, psixoloq olduğunu göstərir, həm də onun yalnız özünəməxsus yaradıcılığını və özünəməxsus fikir istedadını əks etdirir.

***Heydər Əliyev,***

*Ümummilli lider*

Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış və bütöv bir ədəbi məktəb formalaşdırmış qüdrətli şəxsiyyətdir. Vətəndaş yazıçının bədii nailiyyətlərlə zəngin irsində azərbaycançılıq məfkurəsi dövrün ictimai-siyasi fikrinin aparıcı amili kimi dolğun ifadəsini tapmışdır. Sənətkar həyat həqiqətlərini, ictimai mühiti hərtərəfli əks etdirən və bədii-estetik dəyər daşıyıcısına çevrilən rəngarəng obrazlar qalereyası yaratmışdır. Ana dilinin saflığı uğrunda daim mübarizə aparmış Cəlil Məmmədquluzadənin meydana gətirdiyi qiymətli dram və nəsr əsərləri, parlaq publisistika dərin humanist məzmuna malik olub, özündə milli və ümumbəşəri dəyərlərin vəhdətini ehtiva edir. Azərbaycanda və onun hüdudlarından kənarda geniş yayılaraq milli oyanışa, yeniləşmə hərəkatına yol açan və azadlıq ideyalarının inkişafına qüvvətli təsir göstərən "Molla Nəsrəddin" jurnalı məhz Mirzə Cəlil dühasının məhsuludur.

Cəlil Məmmədquluzadə həyat həqiqətlərini, ictimai mühiti hərtərəfli əks etdirən və bədii-estetik dəyər daşıyıcısına çevrilən rəngarəng obrazlar qalereyası yaratmışdır.

***İlham Əliyev,***

*Azərbaycan Respublikasının prezidenti*

"Ölülər"dən alınan təsir tamdır. Bu əsərdə olduğu kimi cahid şeyxlərin təəsüb və şarlatanlığı heç bir zaman qamçılanmamış və qamçılana bilməzdi də... "Ölülər" draması həyatdan alınmış, iqtidarla yazılmış, tam təsir bəxş edən bir əsərdir.

***Nəcəf bəy Vəzirov,***
*yazıçı və dramaturq*

Onun (Cəlil Məmmədquluzadənin) hekayələri bilavasitə həyatdan götürülmüşdür, boş təxəyyülün məhsulu deyildir.

İndiyə qədər çapdan çıxmış nömrələrə əsasən demək olar ki, "Molla Nəsrəddin" nöqsanlara gülmək yolu ilə müsəlman cəmiyyətini islah etməkdən ibarət olan məqsədini tamamilə yerinə yetirir..., azərbaycanlıların vaxtı keçmiş, köhnəlmiş görüşlərini, anlayış və adətlərini, gülüş yolu ilə aradan qaldırmaq, onların adətlərini islah etməyə və özlərini də oyadıb, nəcib və ciddi fəaliyyətə sövq etməyə çalışır".

***Firidun bəy Köçərli,***
*maarifçi, pedaqoq,ədəbiyyatşünas*

Şeyx Nəsrullahın ölüləri diriltməsi yalansa da, "Ölülər"in ölü fikirləri diriltməsinə şübhə edilə bilməz.

***Sultan Məcid Qənizadə,***
*yazıçı*

Artıq dərəcədə məharətlə yazılmış, məzmunu eynən həyatımızdan götürülmüş bu drama ("Ölülər") müsəlmanların həyatında böyük rol oynayacaqdır. Paslanmış beyinləri pasdan təmizləyib, ölmüş ruhlara can verəcəkdir.

***Nəriman Nərimanov,***
*ictimai-siyasi xadim, yazıçı*

Mirzə Cəlil Məmmədquluzadənin müdirliyi altında Tiflisdə Azərbaycan Türkcəsi ilə nəşrə başlayan "Molla Nəsrəddin" jurnalı satirik və yumorist, mətbu orqanların ən yaxşısı və faydalılarından biri idi. Şərq ölkələrində doğrudan da misli olmayan bu jurnal İran həyatına aid məsələlərdən də bəhs edirdi. Onun, İranın Qafqaz sərhədlərində olan əyalət və vilayətlərinə, hətta Tehranın özünə də mühüm tarixi təsiri olmuşdur.

***Məmmədəli Tərbiyət,***
*Cənubi Azərbaycan alimi*

C.Məmmədquluzadənin və "Molla Nəsrəddin" məcmuəsinin yerli istismarçılara, çar məmurlarına, köhnəliyə qarşı, İran və Türkiyə hökmdarlarına qarşı, Şərq ətalətinə, dinə və mövhumata qarşı apardığı mübarizə Azərbaycan zəhmətkeşlərinin öz istiqlaliyyətləri uğrunda mübarizə etmək üçün ayağa qalxmalarına çox böyük fayda vermişdi".

***Abdulla Şaiq,***
*şair, yazıçı*

“Ölülər”də sənətkaranə bir dirilik, mahiranə bir incəlik vardır. “Ölülər”-in hər bir təbəssümündən acı bir fəryad qopar.
“Ölülər” mühərrirində bəzən Qoqol ruhu var.
“Ölülər” qüsursuz deyil, fəqət bu qüsur gözəl bir rəsmin ətrafında gözə çarpan ləkələr qədər təbii görünə bilər.

***Hüseyn Cavid,***
*şair, yazıçı və dramaturq*

“Ölülər” – “Molla Nəsrəddin” kimi baltanı dibindən vuran bir əsərdir.

***Üzeyir Hacıbəyov,***
*bəstəkar*

Bilirəm, bir çox möhtərəm ağalar Mirzə Cəlil cənablarının “Ölülər”-ni Qoqolun “Revizor”u ilə müqayisə edəcəklər. Mən isə bundan irəli getmək istəyirəm. Zira “Revizor”da kefli İsgəndər kimi bir qüvvə yoxdur ki, “elm oxuyun, alim olun” deyib, “adam olun” deməyənlərə, doqquz yaşında ərə gedən qızlara, qardaşının, ata və anasının dirilməsindən ötrü fikirləşməyə gedənlərə, dirildikdən sonra evlərinə, yurdlarına qayıtmaq istərkən qapısı üzünə açılmayan “ölülər”ə gülsün, doqquz yaşında nazlılarını Şeyx Nəsrullahlara məcburən arvad etmək istəyən ataların üzünə tüpürməklə ağlasın və ağlatsın.

***Seyid Hüseyn,***
*yazıçı və tənqidçi*

“Molla Nəsrəddin”in İran məşrutiyyət inqilabına böyük təsiri olmuşdur... Cəlil Məmmədquluzadənin ürəyi həmişə bizimlə olmuşdur.

***Seyid Cəfər Pişəvəri,***
*ictimai-siyasi xadim*

İlk rus inqilabı Azərbaycan ədəbiyyatında yeni bir simanı meydana çıxarmşdır. Bu yazıçı Azərbaycan ədəbiyyatının inkişafında yeni bir səhifə açmış, onda inqilabi-demokratik istiqamətin əsasını qoymuşdur. Bu, “Molla Nəsrəddin” təxəllüsü ilə bütün şərqdə məşhur olan C. Məmmədquluzadə idi.

***Səməd Vurğun,***
*Xalq şairi*

Mirzə Cəlil ədəbiyyatımıza "xırda adamları”, onların dərdini, ürək döyüntülərini gətirdi. Xalqın dərdini qələmə almaq - vətənə, xalqa sonsuz məhəbbətdən doğur.

***Mir Cəlal Paşayev,***

*yazıçı, ədəbiyyatşünas*

Cəlil Məmmədquluzadənin və onun 1906-cı ildən başlayaraq ətrafına topladığı mollanəsrəddinçilərin kəşf edib mətbuat aləminə, döyüş meydanına çıxardığı Sabirlərin, Əli Nəzmilərin qələminin gücü ilə Azərbaycan satirik ədəbiyyatının şöhrəti ölkə sərhədini aşaraq, bütün Şərqdə rəğbət, məhəbbət qazanmış, Şərqin müxtəlif ölkələrində qoca Molla Nəsrəddinin neçə-neçə istedadlı davamçıları, məfkurə və sənət dostları yetişmişdir.

***Məmməd Cəfər,***

*Tənqidçi, ədəbiyyatşünas*

Cəlil Məmmədquluzadə atəşin bir vətənpərvər idi. Bütün Azərbaycan xalqını azad və xoşbəxt görmək onun müqəddəs arzusu idi. Buna görə də o, həyatı boyu ən gərgin və
dolaşıq dövrlərdə belə, vətənpərvər yol tutmuş, zamanın qabaqcıl fikirlərini xalqa başa salmışdır.

***Mirzə İbrahimov,***
*yazıçı*

Cəlil Məmmədquluzadə elə tarixi şəxsiyyətlərdəndir ki, onların mübarizələrdə keçən fəaliyyəti mənsub olduqları xalqın tərəqqisinə böyük təkan olur, onlar öz doğma yurdunu on illərlə irəli salır. O şəxsiyyətlərin sürəti nəsillər üçün vətənpərvərlik, qeyrət və fədakarlığın ilhamverici nümunəsinə çevrilir.

***Əziz Mirəhmədov,***
*ədəbiyyatşünas, tənqidçi*

Mirzə Cəlil XX əsr Azərbaycan bədii fikrində yeni realizmin başçısı və böyük nümayəndəsi sayılır. Ümumən Azərbaycan realizmi Zakirdən Sabirə qədər keçdiyi yolda Mirzə Cəlildən yüksək zirvə tanımır. Bizdə tənqidi realizm Mirzə Cəlillə kamala çatır. O, M.F.Axundov realizminin, sadəcə, davamçısı deyildi, bu realizmin inkişafında tam yeni mərhələnin "baneyi-kari" idi. Mirzə Fətəlidən sonra Azərbaycan nəsrində, dramaturgiyasında, ədəbi və ictimai fikrində böyük islahatlar Mirzə Cəlil yaradıcılığında baş verir.

***Yaşar Qarayev,***
*ədəbiyyatşünas*

Mən onun haqqında hörmətlə və ehtiramla amma həm də məhrəm ilıq bir nəvazişlə düşünürəm. Mən onun haqqıda babam kimi, atam kimi, qardaşım, oğlum, nəvəm kimi düşünürəm. Böyük yazıçılar bütün nəsillərin yaşıdıdırlar. Cəlil Məmmədquluzadə babalarımızın, atalarımızın mənəvi yaşıdı idi. Bizim nəsil də ona öz yaşıdı kimi, bizim mənəvi problemimizə cavab verən müdrik qardaşı kimi baxır. Mən bilirəm ki, bizim nəsil də gedəcək,... amma o, qalacaq və oğlumun yaşıdı olacaqdır. Bütün zamanların övladıdır o, hər nəslin yol yaldaşıdır. Və bizdən sonra gələn nəsillər onu yenidən kəşf edəcək, öz yaşıdları, müasirləri kimi tanıyacaq və övladlarına bəxş edib gedəcəklər.

***Anar,***
*Xalq yazıçısı*

Cəlil Məmmədquluzadə yaradıcılığı və fəaliyyəti Azərbaycan ədəbiyyatının tarixində unikal bir hadisədir və bu hadisə ədəbiyyatımızın və jurnalistikamızın inkişafında böyük bədii-estetik təkan gücünə malik olmuşdur. Həmin bədii-estetik təkan gücünü müəyyənləşdirən əsas cəhətlərdən biri tarixi estetik ilkinlikdir.

***Elçin,***
*Xalq yazıçısı*

Mircə Cəlil əsərlərini ürəyinin qanı ilə yazırdı.

***Abbas Zamanov,***
*ədəbiyyatşünas*

## Xarici ədəbiyyatda səslənən fikirlər

Cəlil Məmmədquluzadədən çox şey öyrəndiyimə görə özümü xoşbəxt sayıram. Onun nəsr və dram əsərlərindən mən yığcamlıq, dil saflığı, fikir dəqiqliyi öyrənmişəm.

***Çingiz Aytmatov,***
*qırğız yazıçısı*

Ən gözəl bədii əsərlər də daş-qaş kimidir, onların qiyməti özündədir, saflığındadır. Belə əsərlər zamanın təlatümlərindən, əsrlərin keşməkeşindən keçərək yaşayır, xalq bu əsərlərə öz qəlbində yer verir, onları qoruyub saxlayır, nəsildən-nəsilə çatdırır. "Ölülər" də xalqımızın zəngin ədəbiyyat xəzinəsinin belə qiymətli incilərindəndir.

***Səməd Qəni,***
*tacik yazıçısı*

Elə gülüş var ki, ona qədim yunan nəğməkarının şərəfinə Homer gülüşü deyirlər. Rus ədəbiyyatında Qoqol, Qriboyedov, Saltıkov-Şedrin gülüşü vardır. Lakin Cəlil Məmmədquluzadənin amansız gülüşü, Şərq gücünü əks etdirən mərdanə gülüşü də bizim üçün əziz və qiymətlidir.

***Nikolay Tixonov,***
*yazıçı*

Böyük humanist, xalqlar dostluğu və azadlığının görkəmli carçısı Cəlil Məmmədquluzadənin adı və fəaliyyəti Gürcüstanla üzvi surətdə bağlıdır. Gürcüstanda azəri xalqının böyük oğlunu çox sevir və qiymətləndirirlər.
Mirzə Cəlil insanların azadlığa və hürriyətə olan məhəbbətinin böyük tərənnümçüsüdür.

***Otar Lordkipanidze,***
*Gürcüstan SSR, ədəbiyyatşünas*

Mark Tvenin Amerikada etdiyi kimi, Azərbaycan satirasının klassiki də öz vətənində hər cür riyakarlıq, əclaflıq və ikiüzlülük pərdəsini cırıb atmışdır.

***Cozef Nort,***
*Amerika yazıçısı*

Oxumağı bilmirdim. Bakı mədənlərində fəhlə işləyirdim. Yoldaşlarım "Molla Nəsrəddin" jurnalı gətirər, mən də onun şəkillərinə baxardım. Jurnaldakı şəkillər mənə yazılmış sözlərdən az təsir etmirdi. Bəzi şəkillərə baxıb dodaqaltı zümzümə edər, onlara uyğun şeirlər yazardım.

***Süleyman Stalski,***
*Dağıstanın Xalq şairi*

## Fotoşəkillər:



*Cəlil Məmmədquluzadə*



*C.Məmmədquluzadə ailəsi ilə birlikdə*



*Cəlil Məmmədquluzadə oğlu Midhət ilə birlikdə (1916)*



***Şəkildə: C. Məmməquluzadə (ortada) seminariya yoldaşları ilə birlikdə (1882-ci il)***



***Şəkildə soldan: mollanəsrəddinçilərdən bir qrup: Ə. Cəfərzadə, C.Məmmədquluzadə, Ə.Əfəndiyev, S.M.Qənizadə, Ö.F.Nemanzadə və Q.Şərifov.***



***Cəlil Məmmədquluzadə ailə üzvləri və qohumları arasında***

## Əsərləri

Buz : hekayə. - Bakı : CBS Polygraphic Production, 2001. - 15 s.

Buz : hekayə. - Bakı : Gənclik, 1988. - 13 s. – kiril əlifbası ilə

Buz: hekayə. - Bakı : Azərnəşr, 1965. - 23 s. - kiril əlifbası ilə

Hekayələr. – Bakı: Maarif, 1966. – 64 s. - kiril əlifbası ilə

Poçt qutusu. - Bakı : Uşaqgəncnəşr, 1958. - 52 s. - kiril əlifbası ilə

Quzu. - Bakı : Aspoliqraf, 2010. - 28 s.

Usta Zeynal : hekayə. - Bakı : Gənclik, 1977. - 102 s. - kiril əlifbası ilə

## Əsərləri dövrü mətbuatda

Diqqət etməli ; Bildim ki... ; 4 iyun. Tiflis // Ədəbiyyat qəzeti. – 1993. – 19 fevral. - № 7. – S. 3.

Həblül Mətin qəzeti Haaqa konfransının nəticələri haqqında : Mətbuat tarixindən səhifələr // Azərbaycan : qəzet. - 2015. - 15 iyul. - № 151. - S. 14.

Mırt-mırt // Mədəniyyət. – 2009. – 13 mart. – S. 12.

Naxçıvanda bir səyahət ; Naxçıvan səyahəti : Külliyyata əlavə // Ədəbiyyat qəzeti. – 2004. – 7 may.

## Həsr olunmuş şeirlər

**Cəmil Ə.** Hörmətlə baş əyirəm // Bakı. – 1967. – 5 iyun. - № 129. – S. 1.

**Əziz V.** Yeri behişt olsun Mirzə Cəlilin : şeir // Şeirlər. - Bakı : Gənclik, 2005. - S. 224-225.

**Səfərli İ.** Mirzə Cəlil: şeir // Bakı. – 1967. – 5 iyun. - № 129. – S. 2.

**Vahabzadə B.** Anamın kitabı // Ədəbiyyat və incəsənət. – 1967. – 3 iyun. – S. 4.

**Yaqub M**. Salam, ay İsgəndər! : Mirzə Cəlilin "Ölülər"indəki kefli İsgəndərlə görüş // Bu dünyanın qara daşı göyərməz. - Bakı : Azərnəşr, 2007. - S. 500.

## Haqqında kitablarda

**Əlioğlu M**. Molla Nəsrəddinin xələfi ; Cəlil Məmmədquluzadə dramaturgiyasında sənətkarlıq : məqalələr // Darıxan adamlar. 2 cilddə. C. 1. - Bakı : Təhsil, 2009. - S. 102-117.

**Əlioğlu M.** C.Məmmədquluzadə və S.S.Axundovun hekayələri // Darıxan adamlar. 2 cilddə. C. 1. – Bakı: Təhsil, 2009. – S. 237-247.

**Əlioğlu M.** Məslək qardaşları : Mirzə Ələkbər Sabirin və Cəlil Məmmədquluzadənin məsləkdaşlığı, əqidə dostluğu haqqında // Darıxan adamlar. 2 cilddə. C. 1. - Bakı : Təhsil, 2009. - S. 336-359.

**Əliyev Y**. Böyük yazıçı. - Bakı : Gənclik, 1979. - 180 s.

**Əliyeva A.** Cəlil Məmmədquluzadə irsinin nəşri məsələləri. - Bakı : Elm və Təhsil, 2012. - 172 s.

**Xəlil Z.**, **Əsgərli F.** Cəlil Məmmədquluzadə // Uşaq ədəbiyyatı. - Bakı : ADPU, 2011. – S. 91-96.

**Məmmədquluzadə H**. Mirzə Cəlil haqqında xatirələrim . - Bakı : Gənclik, 1981. - 155, [1] s.

**Məmmədov M.** C. Məmmədquluzadənin din və mövhumat əleyhinə mübarizəsi. - Bakı : AzSSR EA nəşri, 1962. - 72 s.

Mirzə Cəlil və Məmmədquluzadələr : məktublaşma. - Bakı : Çinar-çap, 2003. - 240 s.

**Mustafazadə N**. Cəlil Məmmədquluzadə //Tikdim ki, izim qala. - Bakı : Şərq-Qərb, 2001. – S. 14-15.

**Namazov Q.** Cəlil Məmmədquluzadə // Azərbaycan uşaq ədəbiyyatı. - Bakı : Bakı Universiteti nəşriyyatı, 2007. - II hissə: Yazılı ədəbiyyat, IV fəsil. - S. 116-124.

**Ramazanov F.** Cəlil Məmmədquluzadə yaradıcılığında əxlaq məsələləri. - Bakı : [s. n.], 1961. - 37 s.

**Rəhimli İ**. Cəlil Məmmədquluzadə // Azərbaycan teatr tarixi : 5 cilddə. C. 2. - Bakı : Şərq-Qərb, 2017. – S. 16-22.

**Rüstəm S**. Cəlil Məmmədquluzadə : məqalə // Seçilmiş əsərləri 3 cilddə. C. 2. - Bakı : Şərq-Qərb, 2005. - S. 208-214.

## Haqqında dövrü mətbuatda

**Abbaslı T.** Mirzə Cəlil : millətin əbədi mirzəsi // Mədəniyyət. – 2011. – 23 fevral. – S. 13.

**Abbasov H.** Yadımda qalanlar // Bakı. – 1967. – 5 iyun. - № 129. – S. 4.

**Abbasova A**. Ədibin üç böyük hədəfi - Türkləşmək, islamlaşmaq, müasirləşmək : Cəlil Məmmədquluzadə - 154 // Yeni Azərbaycan. - 2023. - 10 fevral. - № 25. - S. 8.

**Acalov A.** Cəlil Məmmədquluzadənin naxçıvanlı müasirləri // Ədəbiyyat və incəsənət. – 1968. – 6 iyul. – S. 2.

**Ağabalayeva S**. Yüz ilin birinciləri : Cəlil Məmmədquluzadə // Azərbaycan : jurnal. - 2023. - № 2. - S. 180-184.

**Ağayev İ.** Ədibin silahdaşı // Bakı. – 1967. – 6 iyun. - № 130. – S. 3.

**Axundov N.** Dostluq ideyalarının alovlu carçısı // Bakı. – 1967. – 6 iyun. - № 130. – S. 3.

**Axundov M. X**. Cəlil Məmmədquluzadə və Həmin xanım barədə təəssüratım // 525-ci qəzet. - 2020. 12 iyun. - № 51. - S. 15.

**Akimova E**. Babamın Azərbaycan cəmiyyəti üçün bu qədər əhəmiyyətli şəxsiyyət olduğunu bilmirdim : Cəlil Məmmədquluzadə nəslinin davamçıları ilə söhbət // Ədəbiyyat qəzeti. - 2019. - 7 dekabr. - № 45/46. - S. 20-21.

**Akimova E**. Cəlil Məmmədquluzadənin : Vətən, millət, dil // Ədəbiyyat qəzeti. - 2019. - 23 fevral. - № 7. - S. 14.

**Alıoğlu S**. Bir obrazın - "Kefli İsgəndər"in taleyi // Respublika. - 2023. - 25 iyun. - № 134. - S. 6.

**Aliyə.** Mirzənin yazdığı kağızlar içində - 140 il tənhalıqda // Mədəniyyət. – 2009. – 11 fevral. – S. 11.

**Aranlı Ş**. Böyük ədibin Kəhrizli həyatı : Cəlil Məmmədquluzadə // Azərbaycan : qəzet. - 2020. - 8 fevral. - № 27. - S. 7.

**Aras O**. Cəlil Məmmədquluzadənin əsərlərinə xaricdən baxış // Ədəbiyyat qəzeti. - 2020. - 11 iyul. - № 22/23. - S. 7.

**Araslı H.** Tarixi bir etiraf // Bakı. – 1967. – 5 iyun. - № 129. – S. 3.

**Aslanov M.** Dar günün dostları // Azərbaycan müəllimi. – 1966. – 20 oktyabr.

**Aytmatov Ç.** Müdrik söz ustası // Ədəbiyyat və incəsənət. – 1967. – 10 iyun. – S. 5.

**Babayeva G**. Heydər Əliyev və Cəlil Məmmədquluzadə irsi : Cəlil Məmmədquluzadə - 150 // Azərbaycan : qəzet. - 2019. - 12 fevral. - № 34. - S. 7.

**Babayeva G**. Mirzə Cəlilin şeir yaradıcılığı haqqında qeydlər // 525-ci qəzet. - 2020. - 11 yanvar. - **№ 3**. - S. 20-21.

**Bayramlı M**. Cəlil Məmmədquluzadə nəslinin davamçıları ilk dəfə Azərbaycana gəliblər // Yeni Azərbaycan. - 2019. - 19 noyabr. - № 213. - S. 6.

**Bayramova Z**. Çoxəsrlik mədəni sərvətlər xəzinəmizə misilsiz töhfələr vermiş maarifpərvər ziyalı // Səs. - 2019. - 19 yanvar. - № 12. - S. 10.

**Bədəlov A**. Gülbaharın monoloqu // Azərbaycan müəllimi. – 1992. – 11 sentyabr. – S. 2.

**Bəşirli X**. Millət eşqi // Azərbaycan : qəzet. - 2019. - 15 fevral. - № 37. - S. 10.

Bizi deyib gələn və bizimlə qalan yazıçı : Cəlil Məmmədquluzadə - 150 // Azərbaycan : qəzet. - 2019. - 4 aprel. - № 71. - S. 7.

Bolqarıstanda Cəlil Məmmədquluzadənin "Seçilmiş əsərləri" çap olunub // Kaspi. - 2019. - 9-12 noyabr. - № 208. – S. 9.

**Buzuluk O., Çanturiya V.** Onun adı məhəbbətlə çəkilir: Moskvada C.Məmmədquluzadənin anadan olmasının 100 illiyinə həsr edilmiş təntənəli gecə // Ədəbiyyat və incəsənət. – 1967. – 3 iyun. – S. 4.

**Cavid R**. İki fərqli Molla Nəsrəddin: Mirzə Cəlil hansını seçmişdi? // 525-ci qəzet. - 2024. - 19 yanvar. - № 10. - S. 13.

**Cavid R**. Mirzə Cəlilin sevdası // 525-ci qəzet. - 2019. - 30 mart. - № 56. - S. 22.

**Cəfərova N**. Oyanan şərqin vicdan səsi : Cəlil Məmmədquluzadə -140 // Azərbaycan. - 2009. - 9 oktyabr. - N 224. - S. 4.

Cəlil Məmmədquluzadənin "Poçt qutusu" kitabı Özbəkistanda // Kaspi. - 2019. - 23-25 noyabr. - № 217. - S. 9.

Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (17 yanvar 2019-cu il) // Respublika. - 2019. - 18 yanvar. - № 13. - S. 1.

Cəlil Məmmədquluzadənin nəslinin davamçıları ilk dəfə Azərbaycana gəlirlər // 525-ci qəzet. - 2019. - 15 noyabr. - № 151. - S. 8.

**Dağlı S.** Molla Nəsrəddin kömək elədi // Ədəbiyyat və incəsənət. – 1967. – 27 may. – S. 11.

**Dünyaminqızı Q**. Talesiz bacılar : və yaxud Mirzə Cəlilin bədbəxt qızları // Kaspi. - 2015. - 4 mart. - № 41. - S. 13.

**Dünyaminqızı Q.** Tarix boyu mətbuatda örnək olan "Molla Nəsrəddin" // Kaspi. – 2013. – 10 aprel. – S. 15.

**Dünyaminqızı Q**. Həm də xeyirxah Mirzə Cəlil : Onun evində bir neçə kimsəsiz uşaq ailənin övladları ilə eyni qayğıda, sevgidə böyüyüb // Kaspi. - 2019. - 7 fevral. - № 25. - S. 15.

El məhəbbətinin ifadəsi // Bakı. – 1967. – 6 iyun. - № 130. – S. 2-3.

El məhəbbətinin ifadəsi // Ədəbiyyat və incəsənət. – 1967. – 10 iyun. – S. 3-4.

**Eyvaz Ü.** Bir publisist əsərin tarixçəsi // Azərbaycan. – 1994. – 6 sentyabr.

**Eyvaz Ü.** Güldürən, düşündürən və ayıldan şəkillər // Xalq qəzeti. – 1996. – 16 aprel.

Ədibin nəsli: Həmidə xanımın nəvəsi Minəxanım Davatdarova ilə müsahibə / söhbəti yazdı: Əfəndiyeva L. // Ədəbiyyat qəzeti. – 1991. – 1 fevral. - № 5. – S 4.

**Əfəndiyev S.** "Molla Nəsrəddin" və Nuxa // Ədəbiyyat və incəsənət. – 1967. – 27 may. – S. 5.

**Əfqanlı R.** Ədibin obrazını yaradarkən // Bakı. – 1967. – 5 iyun. - № 129. – S. 3.

**Əhmədalılar T**. Şuşalı əxlaq-əqidəsi : dahi Mirzə Cəlilin böyük Həmidəsi // Mədəniyyət. - 2012. - 18 yanvar. - № 3. - S. 15.

**Əhmədov B.** Molla Nəsrəddin niyə bağlandı // Ədəbiyyat qəzeti. – 1991. – 1 fevral. - № 5. – S. 4.

**Əhmədov H.** Xalqımızı milli oyanışa səsləyən // Xalq qəzeti. – 2009. – 6 mart. – S. 7.

**Əhmədov T.** Molla Nəsrəddinə yüksək qiymət // Bakı. – 1967. – 3 iyun. – S. 3.

**Əhmədov T**. Xalq azadlığının carçısı "Molla Nəsrəddin" jurnalının təsir dairəsi // Respublika. - 2019. - 24 yanvar. - № 18. - S. 6. ; 25 yanvar. - № 19 . - S. 4.

**Əlibəyov C.** Mirzə Cəlil və Qazi Mirzə Əlinin möcüzəli ülfəti // Ədəbiyyat qəzeti. – 2008. – 1 avqust. – S. 5-6.

**Əlimirzəyev X.** C. Məmmədquluzadə və Krılov təmsilləri // Azərbaycan gəncləri. – 1966. – 7 yanvar.

**Əlioğlu M.** Cəlil Məmmədquluzadənin dramaturgiyasında sənətkarlıq // Ədəbiyyat qəzeti. – 1967. – 3 may. – S. 3-4.

**Əlioğlu P**. Cəlil Məmmədquluzadənin naməlum məktubu // 525-ci qəzet. - 2020. - 12 sentyabr. - № 109. - S. 13.

**Əlişanoğlu T**. Acizlikdən Məhəmmədhəsən əmi kimi ağlamışam... : "Sevdiyim əsər" layihəsində budəfəki həmsöhbətimiz professor Tehran Əlişanoğludur // Kaspi. - 2019. - 26 yanvar. - № 17. - S. 12-13.

**Əliyev K**. Cəlil Məmmədquluzadə: "Əhvalatlar"ın poetikası // Kaspi. - 2019. - 2 noyabr. - № 203. - S. 16-18.

**Əliyev K**. Danabaş kəndinin əhvalatlarının poetikası // Ədəbiyyat qəzeti. - 2019. - 2 noyabr. - № 38. - S. 14-15. ; 16 noyabr. - № 39/40. - S.22-23.

**Əliyev R**. Axundovdan sonra Azərbaycan dilinin siyasi əhəmiyyətini Mirzə Cəlil dərk etmişdi : "Cümhuriyyət ədəbiyyatı" layihəsi çərçivəsində Cümhuriyyət və ədəbi dilimiz haqqında yazıçı,

tənqidçi, filalogiya elmləri doktoru Rəhim Əliyevlə söhbətləşdik / söhbətləşdi: Sahil S. // Kaspi. - 2018. - 3 mart. - № 42. - S. 16-17.

**Əliyev R.** Mirzə Cəlil və zəmanəsi // Azərbaycan. – 1997. – 28 sentyabr.

**Əliyeva A**. Cəlil Məmmədquluzadənin "Azərbaycan" məqaləsindəki üç nöqtənin sirri : Bir həqiqət var ki... // Kaspi. - 2019. - 7 may. - № 82. - S. 15.

**Əliyeva A**. Qoca Şərqin söz güzgüsü : Cəlil Məmmədquluzadə // Xalq qəzeti. - 2019. - 22 fevral. - № 42. - S. 6.

**Əliyeva N**. Mirzə Cəlil qüdrəti : Cəlil Məmmədquluzadə - 150 // Azərbaycan : qəzet. - 2019. - 6 fevral. - № 29. - S. 6.

**Əliyeva S.** Böyük ədibin doğulduğu və işlədiyi yerlərdə // Azərbaycan gəncləri. – 1966. – 30 dekabr.

**Əliyeva-Kəngərli G**. Mirzə Cəlil cəsarəti : anlamaq və anlatmaq yolunda // 525-ci qəzet. - 2019. - 23 fevral. - № 37. - S. 23-24.

**Əsgərli Ə**. Cəlil Məmmədquluzadə Molla Nəsrəddin : İsa Həbibbəylinin Molla Nəsrəddin ensiklopediyası haqqında // Respublika. - 2021. - 9 fevral. - № 29. - S. 5.

**Fərəcov S**. Mirzə Cəlil ilə tanışlığı onu teatra bağlamışdı... // Mədəniyyət : qəzet. - 2022. - 4 fevral. - № 10. - S. 6

**Fərəcova Z**. 2019-cu il yubilyarları : Prezident İlham Əliyevin verdiyi sərəncamlar görkəmli şəxsiyyətlərimizə, onların fəaliyyətinə və zəngin diqqət və ehtiramın ifadəsidir //Azərbaycan : qəzet. - 2019. - 31 dekabr. - № 293. - S. 15.

**Fərəcova Z**. Sözünü o kəslərə deyirdi ki... : Sizi deyib gəlmişəm... // Azərbaycan : qəzet. - 2019. - 2 fevral. - № 26. - S. 11.

Gözəl sənət nümunələri // Bakı. – 1967. – 5 iyun. - № 129. – S. 4.

**Hacıyev A.** Tiflis mühiti // Ədəbiyyat və incəsənət. – 1967. – 27 may. – S. 12.

**Hacıyev T.** Sizi deyib gəlmişəm // Azərbaycan. – 1966. - № 8. – S. 133-138.

**Hacızadə A.** Moskvada Cəlil Məmmədquluzadəyə həsr olunmuş ədəbi gecə keçirilmişdir // Ədəbiyyat qəzeti. – 2006. – 14 aprel. – S. 2.

**Həbibbəyli Ə**. Bir ömrə sığmayan Mirzə Cəlil sevdalısı // 525-ci qəzet. - 2019. - 12 oktyabr. - № 137. - S. 16-17.

**Həbibbəyli İ.** Ölməzlik // Ədəbiyyat və incəsənət. – 1989. – 16 iyun. № 24. – S. 6.

**Həbibbəyli İ.** Cəlil Məmmədquluzadə nə vaxt anadan olmuşdur? // Ədəbiyyat və incəsənət. – 1990. – 20 aprel. - № 14. – S. 6.

**Həbibbəyli İ.** Mirzə Cəlilin nəticəsi ilə müsahibə // Ədəbiyyat qəzeti. – 1998. – 12 iyun. – S. 1-2.

**Həbibbəyli İ**. Nigarançılığın mahiyyəti // Azərbaycan. – 1999. – 11 iyul. – S. 6.

**Həbibbəyli İ.** Oskar Şmerlinqin Mirzə Cəlilə məktubları // Ədəbiyyat qəzeti. – 2001. – 1 iyun. - № 21. – S. 3.

**Həbibbəyli İ.** Ustad Mirzə Cəlili tanıtmağa xidmət // Ədəbiyyat qəzeti. – 2003. – 25 iyul. – S. 2.

**Həbibbəyli İ.** Cəlil Məmmədquluzadənin "Naxçıvan səyahəti" // Ədəbiyyat qəzeti. – 2004. – 7 may.

**Həbibbəyli İ**. Mirzə Cəlil haqqında naməlum kinodram : Cəlil Məmmədquluzadə -140 // Azərbaycan. - 2009. - 13 noyabr. - N 254. - S. 10.

**Həbibbəyli İ**. Nekroloqda tənqid : Cəlil Məmmədquluzadə - 140 // Azərbaycan. - 2009. - 3 dekabr. - N 268. - S. 6.

**Həbibbəyli İ.** Cəlil Məmmədquluzadə - Milli istiqlal ədəbiyyatının sərkərdəsi // Xalq qəzeti. – 2010. – 27 yanvar. – S. 7.

**Həbibbəyli İ**. Tənqidçi Əsəd Cahangirə cavab // Ədəbiyyat qəzeti. - 2019. - 4 may. - **№15**. - S. 12.

**Həbibbəyli İ**. Cəlil Məmmədquluzadəyə yenidən qayıdış: İmtina, yoxsa zərurət : Mirzə Cəlil Məmmədquluzadə - 150 // 525-ci qəzet. - 2019. - 13 aprel. - № 62. - S. 10-11.

**Həbibbəyli İ**. Azərbaycançılığın manifesti: Anamın kitabı : "Sevdiyim əsər" layihəsində budəfəki həmsöhbətimiz AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylidir. İsa müəllimin sevdiyi əsər Cəlil Məmmədquluzadənin "Anamın kitabı" dramıdır müsahibə / söhbətləşdi F. Hüseyn // Kaspi. - 2019. - 13 aprel. - № 66. - S. 12-13 ; 20 aprel. - № 71. - S. 12-13.

**Həmidə.** İnanmırsınız, "Dəli yığıncağı"na düşmüşük? : Mirzə Cəlil Məmmədquluzadə - 150 // Mədəniyyət. - 2019. - 12 iyul. - № 50. - S. 7.

**Həsənqızı E.** Ədibin adına layiq : C.Məmmədquluzadənin ev-muzeyinin yaranma tarixindən // Mədəni - Maarif. - 2005. - sentyabr. - № 9. - S.42.

**Həsənzadə T.** Mübariz jurnalist: Cəlil Məmmədquluzadə - 125 // Azərbaycan. – 11 may.

**Həsənzadə T.** İran və Avropa müəllifləri C. Məmmədquluzadə və "Molla Nəsrəddin" jurnalı haqqında // Azərbaycan. – 1999. – 18 iyun.

**Həsənzadə T**. "Ölülər" əsərinin nəşrində yanlışlığa da yol verilib // Azərbaycan. - 2006. - 20 avqust. - S. 5.

**Həşimzadə N**. "Poçt qutusu"ndan "Qəm pəncərəsi"nə // Ədəbiyyat qəzeti. - 2019. - 13 aprel. - № 12. - S. 9.

**Həşimzadə N**. Coys narahatlığı, Mirzə Cəlil üsyanı // Ədəbiyyat qəzeti. - 2018. - 24 noyabr. - № 44. - S. 31.

**Hüseynli Z.** Yusif Vəzirin Mirzə Cəlil sevgisi // Xalq qəzeti. - 2024. - 26 yanvar. - № 16. - S. 12.

**Xəlilova Q.** Cəlil Məmmədquluzadə yaradıcılığına yeni filoloji baxış // Azərbaycan. – 2004. – 11 yanvar. – S. 6.

**Xəlilzadə F**. Deməsək olmur : Cəlil Məmmədquluzadə // Mədəniyyət. - 2013. - 14 iyun. - № 42. - S. 15.

**Xəlilzadə F**. Uzun yolların sonu : Cəlil Məmmədquluzadə və Həmidə xanım // Kaspi. - 2013. - 16-18 fevral. - № 30. - S. 19-20.

**Xəlilzadə F.** Sözlə qurulan güzgü // Mədəniyyət. – 2010. – 25 iyun. – S. 13.

**Xudazadə S.** Yadigar // Azərbaycan pioneri. – 1967. 4 iyun. - № 44. – S. 2.

**İbrahimov E**. Cəlil Məmmədquluzadə və milli dil məsələsi // Ədəbiyyat qəzeti. - 2019. - 6 aprel. - № 11. - S. 22-23.

**İbrahimov M.** Böyük satira ustası // Azərbaycan. – 1966. - № 5. – S. 121-150.

**İsayev Ə.** Mirzə Cəlil əmanəti, halın necədir // Azərbaycan. – 2009. – 3 may. – S. 6.

**İsmayıloğlu F**. Novruzəli ekranda // Ədəbiyyat və incəsənət. – 1967. – 27 may. – S. 12.

**İsmayılova X.** Ədəbiyyat muzeyində Cəlil Məmmədquluzadə fondu // Ədəbiyyat qəzeti. – 2009. – 15 may. – S. 5.

**Kamal R**. Cəlil Məmmədquluzadə: Əlyazma magiyası // Ədəbiyyat qəzeti. - 2019. - 21 dekabr. - № 50/51/52. - S. 29.

**Kamal R**. Frans Kafka və Mirzə Cəlil: Həbs absurd oyun kimi // Ədəbiyyat qəzeti. - 2016. - 13 fevral. - № 6. - S. 7.

**Kamal R**. Mirzə Cəlil və Həmidə xanım: ağrı xatirəsi // Ədəbiyyat qəzeti. - 2017. - 22 aprel. - № 14. - S. 25.

**Kamal R**. Mirzə Cəlilin lüğət oyunu // Ədəbiyyat qəzeti. - 2017. - 3 iyun. - № 20. - S. 23.

**Kamal R**. Mirzə Cəlilin tanatoqrafiyası // Ədəbiyyat qəzeti. - 2018. - 9 iyun. - № 23. - S. 26.

**Kazımoğlu M**. Dinə kor-koranə bağlananların işi Allaha qalıb : Akademik Muxtar Kazımoğlu ilə Cəlil Məmmədquluzadənin "Ölülər" əsəri haqqında müsahibə / söhbətləşdi F. Hüseyn // Kaspi. - 2018. - 11 avqust. - № 139. - S. 12-13.

**Kerbabayev B.** Azəri xalqına alqış // Ədəbiyyat və incəsənət. – 1967. – 10 iyun. – S. 6.

**Krişan Ç.** Əsil inqilabçı ədib // Bakı. – 1967. – 5 iyun. - № 129. – S. 4.

**Köçərli F.** Görkəmli inqilabçı demokrat // Azərbaycan. – 1967. - №4. – S. 188-196.

**Qarabağlı Ə.** O, həm də böyük pedaqoq idi // Bakı. – 1967. – 5 iyun. - № 129. – S. 3.

**Qaraxanoğlu M**. Alleqoriyadan simvolikaya : Mirzə Cəlil, Allah sənə rəhmət eləsin! esse // Ədəbiyyat qəzeti. - 2018. - 3 mart. - № 8. - S. 15.

**Qaraxanoğlu M**. Anar və Mirzə Cəlil; ruhun metafizik bağları : esse // Xalq qəzeti. - 2019. - 30 oktyabr. - № 242. - S. 18-19.

**Qaraxanoğlu M**. Mirzə Cəlilin nigarançılığı... // Ədəbiyyat qəzeti. - 2018. - 13 oktyabr. - № 38. - S. 30.

**Qasımov H**. Molla Nəsrəddin jurnalının və Ədəbiyyat İnstitutunun ilk ensiklopediyası // Ədəbiyyat qəzeti. - 2021. - 20 fevral. - № 7. - S. 22-23.

**Qasımov R**. Cəlil Məmmədquluzadə irsinə qiymətli töhfə // İki sahil. - 2019. - 10 dekabr. - № 228. - S. 13.

**Qasımov R**. İki əsər, bir tale : Və ya Azərbaycan Xalq Cümhuriyyətinin bədii ədəbiyyatda əksi // Kaspi. - 2019. - 28-29 may. - № 96. - S. 15.

**Qasımov R**. Əbədiyaşar Mirzə Cəlil // Kaspi. - 2015. - 3 mart. - № 40. - S. 13.

**Qasımov R**. Metaforik hikmətin ustadı : Cəlil Məmmədquluzadə // Ədəbiyyat qəzeti. - 2022. - 9 aprel. - № 12. - S. 14.

**Qasımov R**. Mirzə Cəlil Məmmədquluzadə irsinə daha bir mənəvi abidə : "Cəlil Məmmədquluzadə 150 il - məqalələr, esselər, müsahibələr, şeirlər" kitabı haqqında // 525-ci qəzet. - 2019. - 22 noyabr. - № 154. - S. 11.

**Qasımov R**. Mirzə Cəlil yaradıcılığının mühüm kodları: tənqidi-simvolik obrazlar // 525-ci qəzet. - 2022. - 15 aprel. - № 65. - S. 13.

Qoca Şərqin güzgüsü : "Molla Nəsrəddin" jurnalı Azərbaycan tarixinin ən parlaq səhifələrindən biridir // Azərbaycan : qəzet. - 2019. - 2 fevral. - № 26. - S. 11.

**Qocayeva A**. Görkəmli ədib, satirik jurnalist : Cəlil Məmmədquluzadənin anadan olmasının 140 illiyi // Azərbaycan. - 2009. - 10 fevral. - S. 7.

**Qocayeva Ə**. Cəlil Məmmədquluzadə biblioqrafiyası nəşr olunmuşdur // Respublika. - 2019. - 26 noyabr. - № 261. - S. 7.

**Quliyev L**. Qoşa çinar : Cəlil Məmmədquluzadə - 150 // Azərbaycan : qəzet. - 2019. - 12 fevral. - № 34. - S. 7.

**Qurbanov Ş.** "Poçt qutusu"nun ilk tərcümələri // Ədəbiyyat və incəsənət. – 1966. – 10 sentyabr.

**Qurbanov Ş**. Qüdrətli qələm sahibi // Bakı. – 1967. – 5 iyun. – № 129. - S. 2-3.

**Məhərrəmli B**. Cəlil Məmmədquluzadə yaradıcılığında ana dili məsələsi // 525-ci qəzet. - 2019. - 15 iyun. - № 88. - S. 20.

**Məmmədli A**. Cəlil Məmmədquluzadənin nəsri // Kaspi. - 2019. - 19 mart. - № 52. - S. 15.

**Məmmədli A**. Cəlil Məmmədquluzadənin publisistikası azərbaycançılıq kontekstində // 525-ci qəzet. - 2020. - 7 fevral. - № 14. - S. 12-13.

**Məmmədli A**. Cəlil Məmmədquluzadənin şeiri : Və ya mollanəsrəddinçilərin yaradıcılığı azərbaycançılıq kontekstində // Kaspi. - 2019. - 5-7 iyun. - № 101. - S. 15.

**Məmmədli C.** Öncə söz gəldi // Xalq qəzeti. – 1996. – 5 aprel. – S. 4.

**Məmmədli Q.** Ataş sərrast olanda // Bakı. – 1967. – 5 iyun. - № 129. – S. 4.

**Məmmədov Ə.** C.Məmmədquluzadə və ilk uşaq jurnallarımız // Azərbaycan müəllimi. – 1966. – 13 oktyabr. – S. 4.

**Məmmədov K.** Xalq məhəbbəti olduqda // Azərbaycan müəllimi. – 1966. – 29 sentyabr. – S. 4.

**Məmmədov K.** Cəlil Məmmədquluzadə və müasirləri // Azərbaycan. – 1966. - №11. – S. 174-180.

**Məmmədov M.** Kiçik hekayələr, böyük hadisələr // Bakı. – 1967. – 5 iyun. - № 129. – S. 2.

**Məmmədov M.** Onlar dost idilər // Azərbaycan pioneri. – 1967. - № 44. – S. 2.

**Məmmədova M**. Müsahibim Molla Nəsrəddindir : Cəlil Məmmədquluzadə - 154 // Səs. - 2023. - 23 fevral. - № 34. - S. 11-12.

**Məmmədova Y**. Yaşayan Mirzə Cəlil və "Molla Nəsrəddin" // Mədəniyyət. - 2020. - 5 fevral. - № 9. - S. 6.

**Məmmədova Y.** Qoca şərqin güzgüsü – Mirzə Cəlil // Mədəniyyət. – 2009. – 1 aprel. – S. 7.

**Mirəhmədov Ə.** Ədibin oğlu // Azərbaycan gəncləri. – 1966. – 14 oktyabr.

**Mirəhmədov Ə.** Molla Nəsrəddin çar məhkəməsi qarşısında // Ədəbiyyat və incəsənət. – 1967. – 15 aprel. – S. 6-8.

**Mirəhmədov Ə.** "Molla Nəsrəddin"in əməkdaşı // Bakı. – 1967. – 31 may. – S. 3.

**Mirəhmədov Ə.** Mirzə Cəlil və dünya mədəniyyəti // Kommunist. – 1967. – 3 iyun.

**Mirəhmədov Ə.** Mirzə Cəlil Əsgəran döyüşündə // Ədəbiyyat qəzeti. – 1994. – 25 mart. - № 13. – S. 2.

**Mirəhmədov Ə**. Bir ömrün aynası // Azərbaycan. – 1994. – 11 mart. – S. 4.

Mirzə Cəlilin nəvə-nəticələri ilə görüşlər // Azərbaycan. – 1994. – 28 iyun.

Mirzə Cəlilin yadigarlarının sorağı ilə atılan addımlar // 525-ci qəzet. - 2019. - 22 noyabr. - № 154. - S. 10.

**Mirzəli C**. Mirzə Cəlil "Ölülər" və "Dəlilər" kontekstində // Kaspi. - 2019. - 29 iyun. - № 115. - S. 21.

**Muxtar Ə.** Özbəklərin hədiyyəsi // Ədəbiyyat və incəsənət. – 1967. – 10 iyun. – S. 5.

**Musayeva İ**. Hər millət mərifət ilə yaşar, cəhalət ilə yox olar... // 525-ci qəzet. - 2023. - 18 yanvar. - № 9. - S. 10-11.

**Musayeva Y**. Cəlil Məmmədquluzadənin əsərləri özbək dilində nəşr olunub // Azərbaycan : qəzet. - 2019. - 12 fevral. - № 34. - S. 6.

**Musayeva Y**. Ölümsüz eşq : Milli məfkurəmizin qoşa sərkərdəsi - Cəlil və Həmidə Məmmədquluzadələr // Azərbaycan : qəzet. - 2019. - 15 mart. - № 60. - S. 11. ; 16 mart. - № 61. - S. 7.

**Müsrepov H**. Dahilərə məhəbbət // Ədəbiyyat və incəsənət. – 1967. – 10 iyun. – S. 5.

**Nazim Ə.** Cəlil Məmmədquluzadə və yaradıcılığı // Azərbaycan. – 1966. - № 9. – S. 166-178.

**Nəbiyev B.** Latın qrafikalı ədəbiyyat nəşri uğurla davam edir: Cəlil Məmmədquluzadə əsərlərinin ən mükəmməl nəşri // Azərbaycan. – 2005. – 24 fevral. – S. 6.

**Nəcəfquliyev H.** Mirzə Cəlilin xatirəsi yad edilir // Savalan. - 2009. – 24-28 fevral. – S. 6.

**Nəcəfov E**. Mirzə Cəlilin "Poçt qutusu"na nəzəri baxış // Ədəbiyyat qəzeti. - 2019. - 3 avqust. - № 27. - S. 30.

**Nigar.** Cəlil Məmmədquluzadə nəslinin davamçıları Bakıda // Palitra. - 2019. - 19 noyabr. - № 142. - S. 13.

**Nizamiqızı H**. Bir tarixlik ev : Cəlil Məmmədquluzadənin ev muzeyi haqqında // Mədəniyyət. - 2009. - 22 yanvar. - S. 7.

**Nizamiqızı H**. Böyük Mirzənin uşaq taleləri : Cəlil Məmmədquluzadə - 150 // Mədəniyyət. - 2019. - 9 oktyabr. - № 72. - S. 6.

**Nizamiqızı H**. Pir olası məkanda : Cəlil Məmmədquluzadənin ev- muzeyində hər eksponat bir xatirəni dilləndirir // Mədəniyyət. - 2012. - 25. 01. - № 5. - S. 7.

**Novruzov Ş.** Mirzə Cəlil qələminin bənzərsizliyi // Ədəbiyyat qəzeti. – 1993. – 19 fevral. - № 7. – S. 3.

**Orucəli H.** İnqilabi sənət yolu // Ədəbiyyat və incəsənət. – 1987. – 26 iyun. - № 26. – S. 6.

**Osmanoğlu M**. Tarix böyük sənətin xeyrinə işləyir : ədəbiyyatşünas Mirzə Cəlil Məmmədquluzadə haqqında // Ədəbiyyat qəzeti. - 2019. - 7 dekabr. - № 45/46. - S. 8.

**Pərvin.** "Anamın kitabı"... kitabsızlıq dərdi : Dahi Mirzə Cəlil Məmmədquluzadənin 150 illik yubileyinə // 525-ci qəzet. - 2019. - 9 fevral. - № 27. - S. 19.

**Pərvin.** "Kamança" səsi... // 525-ci qəzet. - 2019. - 26 yanvar. - № 17. - S. 16-17.

**Pərvin.** Dəli kim, ağıllı kim?! // 525-ci qəzet. - 2019. - 2 fevral. - № 22. - S. 17.

**Rəhimoğlu U.** Müqəddəs şəxsiyyət // Ədəbiyyat qəzeti. – 1991. – 1 fevral. - № 5. – S. 4.

**Rəhimoğlu M**. Mirzə Cəlilin evi önündə düşüncələr, yaxud uzaq-yaxın illərdən bir xatirə // 525-ci qəzet. - 2024. - 20 yanvar. - № 11. - S. 23.

**Rəhimov N.** Azərbaycanda ilk məktəb muzeyini o yaratmışdır // Mədəniyyət. – 2009. – 26 avqust. – S. 6.

**Rzalı R**. Ən çətin günlərin arxası, dostu, sirdaşı // Azərbaycan. – 2006. – 6 iyun. – S. 7.

**Sadıqova M.** Mirzə Cəlil yaradıcılığı yeni tədqiqatda // Xalq qəzeti. – 2004. – 18 aprel. – S. 6.

**Salamoğlu T**. "Ölülər"in poetikası və İslam: birləşən mövqelər : Cəlil Məmmədquluzadənin "Ölülər" əsərinin təhlili // Ədəbiyyat qəzeti. - 2020. - 14 mart. - № 10. - S. 22-23.

**Salamoğlu T**. Qaranlıq dünya problemi və Mirzə Cəlilşünaslığın yeni mərhələsi // 525-ci qəzet. - 2018. - 17 mart. - № 51. - S. 16-17.

**Saləddin Ə.** Molla Nəsrəddin kimdir? // Azərbaycan pioneri. – 1967. – 4 iyun. - № 44. – S. 2.

**Səma S**. Mirzə Cəlilə giley məktubu // Mədəniyyət. – 2009. – 13 mart. – S. 12.

**Şakulaşvili İ.** Hamı üçün əziz sənətkar // Bakı. – 1967. – 5 iyun. - № 129. – S. 3.

**Şmerlinq R.** Atamın yaxın dostu // Bakı. – 1967. – 29 mart.

**Tahirli A**. Mirzə Cəlil nəslinin davamçılarının sorağında // Ədəbiyyat qəzeti. - 2019. - 28 sentyabr. - № 33. - S. 11.

**Talıbzadə K.** Böyük müasirimiz // Bakı. – 1967. – 5 iyun. - № 129. – S. 1-2.

**Tehran Ə.** Mirzə Cəlil və dil // Ədəbiyyat qəzeti. – 2001. – 16 fevral. - № 7. – S. 1-2.

**Toxadze-Reşetnikova N.** Mehriban qonşu // Bakı. – 1966. – 28 iyul.

**Vahabova S**. Mirzə Cəlil dühası : satiradan lirizmə : Cəlil Məmmədquluzadə - 150 // Azərbaycan : qəzet. - 2019. - 2 fevral. - № 26. - S. 11.

**Verdiyev İ.** Cəlil Məmmədquluzadə və Mehdi Hüseyn // Təhsil problemləri. – 2009. – 21-31 avqust. - № 47-48.

**Vəliyeva S**. Usta Zeynal reallıqdan ədəbiyyata gətirilmiş qəhrəmandır: Vəliyeva Sona ilə söhbət / söhbətləşdi: Hüseyn F. // Kaspi. - 2018. - 22 sentyabr. - № 157. - S. 12-13.

Yadigar məktublar // Ədəbiyyat qəzeti. – 1991. – 1 fevral. - № 5. – S. 4.

**Yaqubqızı R**. Böyük mütəfəkkir, yazıçı-dramaturq, jurnalist - Mirzə Cəlil // Respublika. - 2023. - 10 fevral. - № 30. - S. 11.

**Yurdsevər A.** Cəlil Məmmədquluzadə haqqında ölməz xatirələr // Kaspi. - 2015. – 9 oktyabr. – S. 7.

**Yusifli C**. Mirzə Cəlil məqamı // Ədəbiyyat qəzeti. - 2019. - 8 mart. - № 9. - S. 21.

**Zakirqızı A**. Böyük amallar uğrunda çarpışan iki mübariz : İsmayıl bəy Qaspıralı və Cəlil Məmmədquluzadə türk xalqlarının maariflənməsində, düşüncə yüksəlişində əvəzsiz xidmətlər göstəriblər // Kaspi. - 2019. - 30 may. - № 97. - S. 15.

**Zamanov A.** Əməl dostları: 1. Eynəli Sultan və başqaları // Kommunist. – 1967. – 20 may.

**Zamanov A.** Əməl dostları: 2. Şahtaxtlı və Nemanzadə // Kommunist. – 1967. – 28 may.

**Zamanov A.** Əməl dostları: 3. “Molla Nəsrəddin” və Molla Nəsrəddinçilər // Kommunist. – 1967. – 1 iyun.

**Zamanov A.** Ömür yoldaşı // Ədəbiyyat və incəsənət. – 1967. – 29 aprel.

**Zamanov A.** Xalq üçün döyünən ürək // Azərbaycan pioneri. – 1967. – 4 iyun. - № 44. – S. 2.

***Tərtib etdi:*** ***Əkbərova Aysel***